**İsmayıllı rayonunda yerləşən ixrac potensiallı nektarin, alma, gavalı, alça bağlarında keçirilən monitorinqlərə dair məlumat**
**(8 avqust 2024)**

Agentliyin Dağlıq Şirvan regional bölməsinin mütəxəssisləri tərəfindən İsmayıllı rayonunun ərazisində həyata keçirilən monitorinqlər zamanı ərazidəki ixrac potensiallı nektarin, alma, gavalı, alça bağlarında fitosanitar müşahidələr aparılıb, sirayətlənmə əlamətləri olan bitkilərdən nümunələr götürülərək müayinə məqsədilə Azərbaycan Qida Təhlükəsizliyi İnstitunun müvafiq sınaq laboratoriyasına təqdim edilib.

Müayinə nəticələrinə əsasən İsmayıllı rayonu Topçu kəndində Əliyev Yasin Ülfət oğluna məxsus alça bağında  karantin tətbiq edilən qonur monilioz çürümə (Monilnia fructicola) xəstəliyi aşkarlanıb. Xəstəliyin daha geniş ərazilərə yayılmaması, xəstəlik ocaqlarının məhdudlaşdırılması və mümkün məhsul itkisinin qarşısının alınması məqsədilə təxirəsalınmaz bitki mühafizə tədbirlərinin görülməsi barədə qərar qəbul edilib.